ədalət.- 2021.- 1 iyun.- S.3.

# O MUZEYİ YARADAN KİŞİ ÇAĞDAŞ PROMETEY İDİ



QƏZƏNFƏR PAŞAYEV

**Hörmətli Aqil müəllim,**

Nə yaxşı ki, siz varsınız. Məqalələriniz adamın ürəyindən tikan çıxarır. ”Ədalət” qəzetinin 25 may 2021-ci il tarixli sayında çap olunan ”Kəlbəcərdə Şamil Əsgərov muzeyi...” yazınız istisna təşkil etmədi.

Məqaləniz hər iki Qarabağ müharibəsini göz önünə gətirdi. Birinci Qarabağ müharibəsində özüm üçün kəşf etdim ki, həzin bir musiqi, dərd-ələmi izhar edən bir şeir ağır bir yükü daşımaqda ürəyə toxtaq olur. İnanın ki, Birinci Qarabağ müharibəsi vaxtı Bəxtiyar Bahabzadənin ”Belə getməz Qarabağ” dərdi və Xəlil Rza Ulutürkün ”Davam edir 37” şeirləri olmasaydı, mənim ürəyim partlayardı. Xüsusən Mirzə Xəzər tez-tez radioda ”Davam edir 37” şeirini oxuyanda göz yaşlarımı saxlaya bilmirdim.

İkinci Qarabağ müharibəsində kəşf etdim ki, sevincdən dünyanın hər üzünü görmüş, toxtamış kişi də ağlayarmış. Möhtərəm Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyev möcüzəli, sehrli bir səslə ”Əziz Şuşa, Sən azadsan!” - deyəndə sevincdən göz yaşlarımı saxlaya bilmirdim. Mən bu haqda təzəcə çapdan çıxmış ”Xilaskarlar” kitabımda ətraflı yazmışam. Kitabı Sizə göndərmişəm. Yəqin, əlinizə çatıb.

**Aqil müəllim,**

Mən hələ vaxtilə gözəl şair, alim və ziyalı Şamil Əsgərovun yaratdığı ”Diyarşünaslıq muzeyi” haqda dostum Hüseyn Kürdoğlunun ”Kəlbəcərin muzeyi” adlı şeirini oxuduqdan sonra söz açmışdım (bax: Qəzənfər Paşayev. Hüseyn Kürdoğlunun poetik dünyası. ”Sabah”, 2017, s.50-53).

Göstərdiyiniz kimi, ermənilər Kəlbəcəri tutduqdan sonra, Şamil Əsgərovun öz vəsaiti hesabına yaratdığı ”Diyarşünaslıq muzeyi”nin nadir eksponatlarını talan etmişdilər.

Hüseyn Kürdoğlu ”Kəlbəcərin muzeyi” şeirində bu ”Diyarşünaslıq muzeyi”ni yaradan Şamil Əsgərovu ”Onu yaradan kişi çağdaş Prometey idi”, - deyə vəsf edir. Muzeyin etnoqrafik cəhətdən böyük əhəmiyyət kəsb etdiyini nəzərə alaraq çapda olan ”Qəbələ keçmişdə və günümüzdə” kitabımın ”Etnoqrafiya” fəslində də ondan söz açmışam. Çox zəngin olan bu muzey, Hüseyn Kürdoğlunun şeirindən də göründüyü kimi, tarixi keçmişimizi əks etdirən bir abidə idi. Muzeydə əkinçilik, maldarlıq, xalçaçılıq, suvarma, gündəlik kəndli həyatı, ümumiyyətlə diyarşü-naslıqla bağlı o qədər eksponatlar olub ki, nəinki etnoqraflarımız, eləcə də dilimizin leksikası, dialektologiyası və folklorumuz üçün ən qiymətli material kimi diqqəti çəkirdi.

Nə yaxşı ki, şairin vətənpərvər oğlu muzeyi bərpa etməklə məşğuldur. Bərzaniyə gərəkli olacağını düşünərək ”Kəlbəcərin muzeyi” şeirini bütövlükdə təqdim edirəm:

*Kəlbəcərin muzeyi, bir nağıl muzey idi,*
*Zərrədən günəşəcən dünyada hər şey idi.*
*Bütün cah-calalıyla müsibətli yer idi,*
*Aylı, günlü, ulduzlu, kəhkəşanlı göy idi.*
*Bir nağıl muzey idi!*
*Miladdan o yana da, miladdan bu yana da*
*Ən qədim köhnə idi, ən yeni təzə idi.*
*Bir nağıl muzey idi!*
*Daşları neçə rəngdə bir qövsi-qüzeh idi,*
*Bir nağıl muzey idi!*
*Min illərin töhfəsi nə qədər yazı vardı,*
*Ələsgər sazı vardı,*
*Şəmşir avazı vardı.*
*Vurğunun xatirəsi onun yaraşığıydı,*



*Gözünün təbəssümü sanki ay işığıydı.*
*Qılınc, qələm, bir də saz,*
*Gərdəklər qotaz-qotaz,*
*Corablar qotaz-qotaz.*
*Xalçalar, nə xalçalar - Dəlidağ çəmənzarı,*
*Elin fəxri-vüqarı.*
*Neçə növ cəhrə-daraq,*
*Neçə növ dükçə-yumaq.*
*Babaların papağı, kotanı və çomağı,*
*Qayaların qoynunda gildən saxsı çırağı...*
*Ah, nələr vardı, nələr,*
*Nə töhfələr vermişdi, bu muzeyə nənələr?!*
*Günbatan və gündoğan,*
*Güney və Qüzey idi.*
*Bir nağıl muzey idi!*
*Qarlı zirvələr ilə o da üz-üzə idi.*
*Bir nağıl müzey idi!*
*Onu yaradan kişi çağdaş Prometey idi,*
*Dağıtdı bu nağılı, qarət eylədi yağı.*
*Vətənin sinəsindən getməz bu namərd dağı.*
*Kəlbəcərin muzeyi bir nağıl muzey idi,*
*Dünyada hər şey idi!*

Aqil müəllim, Qəbələ rayonu ərazisində aparılan arxeoloji qazıntılar zamanı X əsrə aid gildən düzəldilmiş saxsı çıraqlar üzə çıxarılmışdır.

Şamil Əsgərovun ”Diyarşünaslıq muzeyi”ndə gildən düzəldilmiş saxsı çırağın olması bir daha təsdiq edir ki, ”Kəlbəcərin muzeyi” həqiqətən də bir nağıl muzey imiş.

Aqil müəllim, Allaha şükürlər olsun ki, müzəffər ordumuzun hərbi qüdrəti və Ali Baş Komandanımızın uzaqgörən siyasəti ilə Qarabağ azad edildi. Qarabağlılar, inşallah, doğma yurd-yuvalarına qayıdacaqlar.

**Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarının tarixi-etnoqrafik tədqiqinə həsr olunmuş doktorluq dissertasiyasının müdafiəsində opponenti olduğum, hazırda AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun baş elmi işçisi, tarix elmləri doktoru Solmaz Məhərrəmova Qarabağın ermənilər tərəfindən işğalından əvvəl Laçın rayonunda ”Diyarşünaslıq muzeyi”nin direktoru olub. Deməli, Diyarşünaslıq muzeylərinin yaranmasında məsləhət verəcək kadrlarımız vardır. Arzu edərdim, Qarabağın bütün rayonlarında Diyarşünaslıq muzeyləri yaradılsın. Keçmişimizin qədir-qiymətini bilək.**